# Kazus

(Protokol 1 Maddə + Maddə 14)

**İşin aşağıda şərh olunmuş hallarını ayrı-seçkilik olub-olmadığını müəyyən etmək üçün təhlil edin. Verilmiş sualları cavablandırın.**

1996-cı ildə xanım A. kilsədə xristian adət-ənənəsi ilə nikaha daxil olur (o və həyat yoldaşı nikahın dövlət tərəfindən qeydiyyata alınması proseduru üçün müraciət etmirlər). 2013-cü ildə onun həyat yoldaşı vəfat edir.

2014-cü ildə xanım A. öz adından nikahın rəsmi olaraq tanınması, yetkinlik yaşına çatmamış uşaqlarının (oğlu və qızı) adından isə atalığın müəyyən edilməsi ilə bağlı iddia qaldırır. Milli məhkəmə onun nikahın qeydiyyata alınması ilə bağlı iddiasını rədd edir, lakin keçmiş ərini uşaqların atası olaraq tanıyır. Xanım A. bu qərardan şikayət verir.

2014-cü ilin payızında xanım A. pensiya fonduna müraciət edərək mərhumun pensiyasının ona və uşaqlarına ödənilməsini, eləcə də tibbi sığorta üzrə ödənişlərin ona və uşaqlarına köçürülməsini tələb edir. Pensiya fondu pensiya və ödənişləri onun adına deyil, uşaqların adına keçirir. Belə bir qərar onunla əsaslandırılır ki, kilsədə bağlanmış nikahın heç bir hüquqi qüvvəsi yox idi. Xanım A. bu qərardan şikayət verir, lakin işi uda bilmir. Milli məhkəmələr pensiya fondunun qərarını qüvvədə saxlayırlar və ona istinad edirlər ki, milli qanunvericiliyə əsasən məhz şəxslər rəsmi nikahda olduqda sağ qalmış ər/arvad pensiya və tibbi sığorta üzrə ödəmələri almaq hüququna malik olur.

- **Burada hansı hüquqdan istifadə zamanı ayrı-seçkiliyə yol verildiyindən danışmaq olar? Hansı əlamətə görə?**
- **Necə düşünürsünüz, ayri-seçkilik baş veribmi? Cavabınızı əsaslandırın.**
- **Aşağıdakı məlumatla tanış olduqdan sonra fikriniz dəyişəcəkmi? Niyə?**

Avropa Şurasına üzv olan 36 ölkədə keçirilən müqayisəli təhlil göstərir ki, 14 ölkədə müxtəlif növ dini nikahlar rəsmi şəkildə tanınır. 22 ölkədə kilsədə bağlanan nikahlar dövlət tərəfindən rəsmi nikah kimi tanınmır və birgə yaşamağa bərabər tutulur.

36 dövlətdən 4-ü birgə yaşamağı eyni şəkildə tanıyırlar. Digər ölkələrdə (9) birgə yaşama nikaha analoji bir müəssisə olaraq tanınmasa da, bu və ya digər hüquqi nəticələri nəzərdə tutur. Ölkələrin əksəriyyətində birgə yaşama dövlət tərəfindən tanınmır.

24 ölkədə sağ qalmış ərin/arvadın – bir sıra şərtlərə əməl etməklə - ölmüş ərin/arvadın sosial ödəmələrini onun adına köçürülməsini tələb etmək hüququ var. Yalnız 6 dövlətdə sağ qalmış ər və ya arvada analoji hüquqlar verilir.

Yalnız 6 ölkədə birgə yaşayan cütün sağ qalan partnyoruna müəyyən hallarda onunla birgə yaşayan partnyorunun pensiyasını almaq hüququ verilmişdir. Əksər hallarda, sağ qalan ər/arvada belə hüquq verilsə, sağ qalan birgə yaşama partnyoru eyni hüquqdan istifadə edəbilmir.

*Hazırladı: Maksim Timofeyev*